# Avtomobillərin aksiya ərazisindən keçidinə şərait yaradılıb



Həmişə olduğu kimi, ekoaksiyanın 118-ci günündə də Rusiya sülhməramlılarına aid avtomobillər Laçın-Xankəndi yolunda təşkil olunan aksiya ərazisindən sərbəst hərəkət ediblər.

Xankəndidən Laçın istiqamətində hərəkət edən sülhməramlılara məxsus 4 yük avtomobilinin aksiya ərazisindən sərbəst keçidi təmin olunub. Səhər saatlarında ümumilikdə Rusiya sülhməramlılarının 5, Beynəlxalq Qırmızı Xaç Komitəsinin isə 10 avtomobili aksiya ərazisindən keçib.

* * *

Sülhməramlılara məxsus bir minik, doqquz yük avtomobilinin Xankəndidən Laçın istiqamətinə sərbəst hərəkəti təmin edilib. Gün ərzində indiyədək aksiya ərazisindən Rusiya sülhməramlılarının 16, Beynəlxalq Qırmızı Xaç Komitəsinin isə 10 avtomobili keçib.

* * *

Xankəndidən Laçın istiqamətinə hərəkət edən Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus 1 yük, 9 minik avtomobili ərazidən maneəsiz keçib.

Bu, bir daha göstərir ki, Ermənistanın blokada ilə bağlı səsləndirdiyi iddialar saxtadır. Laçın-Xankəndi yolu humanitar məqsədli bütün avtomobillər və mülki şəxslər üçün açıqdır.

Qeyd edək ki, Qarabağda ekoloji istismara qarşı ötən il dekabrın 12-dən başlayan aksiya 118 gündür davam edir.




Azərbaycan.- 2023.- 9 aprel.- S.6.